# Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri

# Antalyada "Böyük İyirmilik" ölkələri liderlərinin Sammiti

Noyabrın 15-də Türkiyənin Antalya şəhərində "Böyük İyirmilik" ölkələri liderlərinin Sammiti öz işinə başlayıb.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Sammitdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və digər ölkələrin dövlət başçılarını, həmçinin beynəlxalq təşkilatların rəhbərlərini qarşıladı.

Zirvə görüşünün iştirakçıları birgə foto çəkdirdilər.

"Böyük İyirmilik" ölkələri liderlərinin Sammitində iştirak etmək üçün Antalyaya 13 min nümayəndə gəlib. İki gün davam edən Sammit çərçivəsində yeddi böyük toplantı keçirildi. Sammitin gündəliyinə qlobal iqtisadiyyat məsələləri ilə yanaşı, terrorçuluğa qarşı mübarizə, qaçqın problemi kimi aktual mövzular da daxildir.

Sayca onuncu dəfə keçirilən bu Sammitdə Azərbaycan xüsusi dəvətli qonaq statusunda təmsil olunur. Tədbirin ənənəsinə görə, toplantıya evsahibliyi edən ölkə tərəfindən fəxri qonaq dəvət edilir. Türkiyənin fəxri qonaq qismində Azərbaycanı seçməsi ölkələrimiz arasındakı qardaşlıq əlaqələrinin bir daha təsdiqi olmaqla yanaşı, Azərbaycanın iqtisadi potensialına verilən önəmin göstəricisidir. Qlobal iqtisadiyyata töhfə verəcək, Cənub-Şərqi Asiya regionundan Avropaya qədər geniş bir ərazini əhatə edən iki böyük layihənin - Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin və TACIS proqramının təşəbbüskarı və iştirakçısı kimi Azərbaycanın bu Sammitdə iştirakına böyük əhəmiyyət verilir. Çünki Azərbaycan güclü iqtisadi potensiala malik ölkə və sabitlik adası kimi Qərbin, ümumiyyətlə, dünyanın diqqət mərkəzindədir. Etibarlı tərəfdaş kimi Azərbaycan regionla yanaşı, dünya iqtisadiyyatına da böyük töhfələr verir.

"G20"nin Antalya Sammiti Ankarada və Parisdə törədilmiş terror aktları qurbanlarının xatirəsinin yad olunması ilə başladı.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dedi ki, Fransa paytaxtında baş verən terror hadisəsi iqtisadiyyat və təhlükəsizlik arasındakı əlaqənin bir-biri ilə sıx bağlı olduğunu göstərir. Son illər Suriyada, bu ilin son dörd ayında Türkiyədə, daha sonra Parisdə törədilən terror aktları göstərdi ki, terrorizm bütün dünyada sülh və təhlükəsizliyə təhdid olmaqda davam edir. Terrorla mübarizədə qəti addımlar atılmalıdır və bu baxımdan Antalya Sammiti xüsusi əhəmiyyət daşıyır.














Türkiyə Prezidenti bildirdi ki, "Böyük İyirmiliyin" diqqət mərkəzində əsasən iqtisadiyyat, siyasət, sosial məsələlər olsa da, insan amili məsələsini bunlardan ayırmaq düzgün deyil. Son hadisələr bir daha göstərir ki, dünyada sülhün bərqərar olması üçün əməkdaşlığı gücləndirməliyik.

Prezident Rəcəb Tayyib Ərdoğan diqqəti humanitar problemə çevrilmiş və ağır nəticələr verən qaçqın böhranına yönəltdi. Bildirdi ki, qaçqın məsələsi beynəlxalq səviyyədə müzakirə olunmalı və bu sahədə əməkdaşlıq daha da möhkəmləndirilməlidir. Beynəlxalq birliyin bu sahədə fəaliyyəti lazımi səviyyədə deyil. "G20"nin Antalya Sammiti bu məsələnin həllində tarixi rol oynaya bilər.

Türkiyə dövlətinin başçısı təəssüflə vurğuladı ki, "G20"nin Sammiti təkcə böhran zamanlarında xatırlanacaq bir platforma olmamalıdır. Qlobal iqtisadi böhranın başladığı 2008-ci ildən bəri bu problemi həll etmək mümkün olmur. Atılan bütün addımlara baxmayaraq, hələ də güclü iqtisadi uğurlara nail olmamışıq. Bu baxımdan beynəlxalq birliyin atacağı addımlar getdikcə daha çox əhəmiyyət kəsb edir.

Prezident Rəcəb Tayyib Ərdoğan Antalya Sammitində müzakirə olunacaq məsələlərin müsbət nəticələr verəcəyinə əminliyini ifadə etdi.

Qeyd edək ki, "Böyük İyirmiliyə" daxil olan ölkələr dünya sənayesinin 85 faizini, ümumi daxili məhsulun 90 faizini, dünya ticarətinin 80 faizini təmsil edirlər. Dünya əhalisinin üçdə iki hissəsi "Böyük İyirmiliyin" üzvü olan ABŞ, Böyük Britaniya, Türkiyə, Yaponiya, Kanada, Almaniya, Fransa, İtaliya, Rusiya, Avstraliya, Braziliya, Hindistan, Çin, İndoneziya, Meksika, Səudiyyə Ərəbistanı, Cənubi Afrika Respublikası, Argentina, Koreya Respublikası və Avropa İttifaqı ərazisində yaşayır.

***AZƏRTAC***




